**13.10.2022: xəbər**

**Preliminary Discussion of Doctoral Thesis of PhD Student in Economics and Management Department**

On October 7, 2022, a preliminary discussion of the thesis of Mustafa Alalawneh, a doctoral student of Khazar University's Department of Economics and Management, who has been studying for a doctoral degree in 5310.01 - "World Economy" at Khazar University since 2018, within the framework of the cultural exchange protocol between Azerbaijan and Jordan, was held.

Maral Jamalova, Ph.D. in Economics, coordinator of the Department of Economics and Management, provided information about the doctoral student's education, scientific activities and documents necessary for a preliminary discussion. The doctoral candidate acquainted the participants of the meeting with the main provisions of the dissertation work - the structure, goals and objectives, the relevance of the topic, the scientific novelty that the topic brings to the literature, and its summary.

Then the opinions and suggestions of the commission members – Jeyhun Mammadov, Ph.D. in Economics, the dean of the School of Economics and Management of Khazar University, Inqilab Ahmadov, Ph.D. in Economics, the dean of the Graduate School of Economics and Business of Khazar University, Fuat Rasulov, associate professor of Khazar University Economics and Management Department and Azer Mehdiyev, associate professor of Economics Department of Azerbaijan State University of Economics were listened to, the doctoral student answered questions related to the topic.

In addition to the members of the commission, the supervisor of the doctoral student, Professor Muslum Ibrahimov, Doctor of Sciences in Economics, also spoke at the meeting. The speakers expressed their views on the relevance of the topic, the role of foreign direct investments in economic development, and statistical/econometric calculations.

At the end of the discussion it was agreed that Mustafa Alalawneh's doctoral thesis entitled "Assessment of the impact of foreign direct investment on the economic development of Jordan", meets the requirements of the Higher Attestation Commission under the President of the Republic of Azerbaijan and it was decided to pass it to the next stage, for the candidate to obtain PhD degree in Philosophy.

**İqtisadiyyat və menecment departamentində doktorantın elmi işinin ilkin müzakirəsi keçirildi**

2022-ci il oktyabrın 7-də Xəzər Universitetinin İqtisadiyyat və menecment departamentinin doktorantı –Azərbaycan və İordaniya arasında mədəniyyət mübadiləsi protokolu çərçivəsində 2018-ci ildən Xəzər Universitetində 5310.01 - "Dünya iqtisadiyyatı" üzrə doktorantura təhsili alan Mustafa Alalawneh`in dissertasiya işinin ilkin müzakirəsi keçirilmişdir.

İqtisadiyyat və menecment departamentinin koordinatoru i.ü.f.d. Maral Camalova doktorantın təhsili, elmi fəaliyyəti və ilkin müzakirə üçün zəruri olan sənədlərlə bağlı məlumat verdi. Doktorant iclas iştirakçılarını dissertasiya işinin əsas müddəaları – dissertasiyanın strukturu, məqsəd və vəzifələri, mövzunun aktuallığı, mövzunun ədəbiyyata gətirdiyi elmi yeniliyi və qısa məzmunu ilə tanış etdi.

Sonra komissiya üzvlərinin – Xəzər Universitetinin İqtisadiyyat və menecment fakültəsinin dekanı, i.ü.f.d. Ceyhun Məmmədov, Xəzər Universitetinin İqtisadiyyat və biznes yüksək təhsil fakültəsinin dekanı, i.ü.e.d. İnqilab Əhmədov, Xəzər Universiteti İqtisadiyyat və menecment departamentinin müəllimi dosent Fuat Rəsulov və Azərbaycan Dövlət İqtisad Universitetinin İqtisadiyyat kafedrasının dosent Azər Mehdiyevin rəy və təklifləri dinlənildi, doktorant mövzu ilə bağlı sualları cavablandırdı.

Komissiya üzvləri ilə yanaşı doktorantın elmi rəhbəri i.e.d. professor Müslüm İbrahimov da iclasda çıxış etmişdir. Çıxış edənlər mövzunun aktuallığı, birbaşa xarici investisiyaların iqitisadi inkişafda rolu, statistik/ekonometrik hesablamalarla bağlı münasibətlərini bildirdilər.

Müzakirənin sonunda Mustafa Alalawneh`in "Birbaşa xarici investisiyaların İordaniyanın iqtisadi inkişafına təsirinin qiymətləndirilməsi" adlı elmi tədqiqat işinin Azərbaycan Respublikası Prezidentinin yanında Ali Attestasiya Komissiyasının tələblərinə cavab verdiyi nəzərə alınaraq, iqtisadiyyat üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün növbəti mərhələyə keçirilməsinə qərar verildi.




Khazar
University




əLİNİZİ
BURADA
DEZİNFEKSİYA
EDİN !


Khazar
University








SIRAB


SIRAB






Khazar
University